# Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1135-VIQD nömrəli, 23 aprel tarixli 1141-VIQD nömrəli və 21 may tarixli 1157-VIQD nömrəli qanunları) 221.4-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 221.4.9-cu maddənin ikinci hissəsinin birinci cümləsində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.2. 221.4.10-cu maddədə "orqanına" sözü "orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə, "orqanı tərəfindən təsdiq edilmiş" sözləri "orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I) 5-ci maddəsinin I hissəsinin 4-cü bəndində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.2.1-ci maddədə, 7.5-ci maddənin birinci cümləsində, 7.6-cı maddənin birinci və ikinci cümlələrində, 9.3-cü maddədə və 27.3-cü maddənin üçüncü cümləsində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

3.2. 3.2.3-cü maddədə "hakimiyyəti orqanlarının" sözləri "orqanlarının (qurumlarının)" sözləri ilə əvəz edilsin;

3.3. 7-1.5-ci maddəyə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin;

3.4. 53.2-ci maddəyə "orqanları" sözündən sonra "(qurumları)" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2024-cü il*

Azərbaycan.- 2024.- 16 avqust (№ 174).- S.2.